Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 52 (7779) ÇƏRŞƏNBƏ, 7 mart 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik

## 8 mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik

Hörmətli xanımlar!

Sizi, bütün Azərbaycan qadınlarını 8 mart - Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edirəm. Hər birinizə cansağlığı, səadət və işlərinizdə nailiyyətlər arzulayıram.

Sivilizasiyaların qovuşuğunda özünün misilsiz mədəni-mənəvi sərvətlər xəzinəsini yaratmış xalqımızın bu çoxəsrlik zəngin irsinin yaşadılmasında, milli düşüncəmizin parlaq ifadəçisinə çevrilmiş dilimizin saflığının qorunub saxlanılmasında analarımızın müstəsna xidmətləri vardır. Ədəbiyyatımızda daim gözəlliyin və zərifliyin mücəssəməsi, sədaqətin və ülviliyin rəmzi kimi vəsf olunan dərin mənəviyyatlı Azərbaycan qadını, həmçinin güclü iradəsi, vətənpərvərliyi və fədakarlığı ilə seçilərək yurdun mübarizə salnaməsində silinməz izlər qoymuşdur. Keçmişimizin mürəkkəb sosial-siyasi dəyişikliklərə məruz qaldığı müəyyən dövrlərdə o, həmişə təmkinlilik nümayiş etdirməklə cəmiyyətin sarsılmaz mənəvi dayağı olduğunu sübuta yetirmişdir.

Yüzüncü ildönümünü təntənə ilə qeyd etməyə hazırlaşdığımız Azərbaycan Xalq Cümhuriyyətinin Şərq aləmində ilk dəfə qadınlara seçmək və seçilmək hüququ verməsi məhz ictimai-siyasi fikir və mədəniyyət tariximizin görkəmli simalarının cəmiyyətin ahəngdar inkişafında, taleyüklü məsələlərin ədalətli həllində qadınların fəaliyyətini layiqincə qiymətləndirmələrinin nəticəsidir. Ötən müddət ərzində Azərbaycan xanımları maarifpərvər sələflərinin ənənələrini şərəf və ehtiramla davam etdirmiş, müasirləşmə yolunda çoxsaylı müvəffəqiyyətlər qazanmış və müstəqillik naminə ümumxalq hərəkatının ön sıralarında olmuşlar.

Dövlətçiliyimizin əsaslarının möhkəmləndirilməsinə və ölkəmizin hərtərəfli yüksəlişinin təmin olunmasına yönəlmiş yaradıcı potensialınızı siz bu gün də uğurla gerçəkləşdirməkdəsiniz. Dinamik sosial-mədəni həyatımızın fəal iştirakçıları olaraq sizin milliliklə müasirliyin vəhdətində indiki yüksək nüfuzunuz və ictimai mövqeyinizlə fəxr edə bilərik. Əminəm ki, müqəddəs ailə dəyərlərimizin toxunulmazlığı keşiyində dayanmaqla bərabər gənc nəslin doğma yurdumuza və milli ideallarımıza bağlılıq ruhunda tərbiyəsi üçün bundan sonra da qüvvənizi əsirgəməyəcək, ictimai-mənəvi mühitimizin davamlı zənginləşməsinə yeni-yeni töhfələr verəcəksiniz.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 mart 2018-ci il*

## Rusiya-Azərbaycan əməkdaşlığının inkişafında mədəniyyət əlaqələri xüsusi rol oynayır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Moskva Akademik Satira Teatrının direktoru Məmmədəli Ağayevi qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Moskva Akademik Satira Teatrının direktoru Məmmədəli Ağayevin keçən il qeyd olunan yubileyi münasibətilə təbriklərini çatdırdı və onun Azərbaycan Respublikasının yüksək ordeni olan "Dostluq" ordeni ilə təltif edildiyini vurğuladı. Prezident İlham Əliyev Məmmədəli Ağayevin 25 ildən artıqdır ki, Moskva Akademik Satira Teatrının direktoru vəzifəsində işlədiyini qeyd edərək onun Rusiyada teatr sənətinin inkişafına böyük töhfə verdiyini dedi. Moskva Akademik Satira Teatrının Rusiyanın aparıcı teatrlarından biri olduğunu qeyd edən dövlət başçısı xalqımızın nümayəndəsinin uzun illər belə yüksək vəzifədə fəaliyyət göstərərək böyük hörmət qazandığını vurğuladı. Prezident İlham Əliyev qeyd etdi ki, Məmmədəli Ağayev bu günə qədər həmişə Azərbaycanla yaxından əlaqə saxlayıb və vətənindən ayrılmayıb. Məmmədəli Ağayevin Rusiya-Azərbaycan əlaqələrinin inkişafında rolunu yüksək qiymətləndirən Prezident İlham Əliyev bildirdi ki, ikitərəfli münasibətlərimizin genişlənməsində mədəniyyət əlaqələri xüsusi rol oynayır. Ölkələrimizin humanitar sahədə çox uğurlu əməkdaşlıq etdiyini deyən dövlət başçısı qeyd etdi ki, Məmmədəli Ağayev bütün bu işlərə fəal töhfə verir. Prezident İlham Əliyev keçən il imzaladığı sərəncamla Məmmədəli Ağayevin Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında mədəni əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə "Dostluq" ordeni ilə təltif edildiyini bir daha bildirdi və ordeni ona təqdim etdi.



Bir çox dövlət mükafatlarına layiq görüldüyünü qeyd edən Məmmədəli Ağayev Azərbaycan Respublikasının "Dostluq" ordeninin onun üçün xüsusi dəyər daşıdığını bildirdi. Otuz səkkiz ildir Moskvada yaşadığını vurğulayan Məmmədəli Ağayev bildirdi ki, bütün ömrünü teatr sahəsində Azərbaycan-Rusiya əməkdaşlığının möhkəmlənməsi işinə həsr edib və bundan sonra da Rusiya-Azərbaycan mədəni əlaqələrinin yüksək səviyyədə olması üçün səylərini əsirgəməyəcək.

Məmmədəli Ağayev dövlət başçısına qarşıdan gələn prezident seçkilərində uğurlar arzuladı. Sonda xatirə şəkli çəkdirildi.

## Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə **qərara alıram:**

1. 2000-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1983-1999-cu illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2018-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2018-ci il aprelin 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 mart 2018-ci il*

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 mart 2018-ci il*

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 mart 2018-ci il*

## Bakının Maştağa qəsəbəsində 9 saylı sanatoriya tipli körpələr evi-uşaq bağçası üçün inşa edilən yeni binanın açılışı olub









Martın 6-da Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakının Sabunçu rayonunun Maştağa qəsəbəsində 9 saylı sanatoriya tipli körpələr evi-uşaq bağçası üçün inşa edilən yeni binanın açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva açılışda iştirak edib.

Birinci vitse-prezident Mehriban Əliyeva yeni binanın rəmzi açılışını bildirən lenti kəsdi, körpələr evi-uşaq bağçasında yaradılan şəraitlə tanış oldu.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov məlumat verdi ki, bu məktəbəqədər təhsil müəssisəsi 1942-ci ildən 5 qrup ilə fəaliyyət göstərib. Bağça sanatoriya tiplidir və uşaq müəssisəsinə vərəm xəstəliyinin sönük formasında olan uşaqların qəbulu Vərəm Dispanserinin göndərişi əsasında həyata keçirilir. 2014-cü ilin sentyabrında bu məktəbəqədər təhsil müəssisəsinin birmərtəbəli köhnə binası sökülərək yerində yeni binanın inşasına başlanıldı. Artıq ikimərtəbəli yeni binada beşi Azərbaycan, biri rus bölməsi olmaqla 6 qrupdan ibarət, müasir tələblərə cavab verən körpələr evi-uşaq bağçası fəaliyyət göstərəcək. 120 yerlik bağçada 2 yaşdan 6 yaşadək uşaqların təlim-tərbiyəsi ilə 47 nəfərdən ibarət pedaqoji heyət məşğul olacaq. Bağça azyaşlı sakinlərin zövqünə uyğun qurulub, onların rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnmələrini təmin edəcək.

Ölkədə uşaq müəssisələrinin yüksək tələblər səviyyəsində qurulması istiqamətində dövlətin gördüyü işlərə Heydər Əliyev Fondu da böyük töhfələr verir. 2014-cü ilin fevral ayında Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramının təqdimatı zamanı fondun məktəbəqədər təhsil müəssisələrində mövcud vəziyyətin monitorinqinin nəticələri açıqlanmışdı və ölkədə yeni bağçaların inşasına ehtiyacın olduğu müəyyən edilmişdi. Həmin vaxtdan fond ölkəmizdəki məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulması, yeni, müasir uşaq müəssisələrinin inşası sahəsindəki fəaliyyətini daha da genişləndirib. Bu bağçada da lazımi şərait yaradılıb, binada videomüşahidə, yanğınxəbərverici sistemlər quraşdırılıb, müəssisə zəruri mebel-inventar və avadanlıqla təchiz edilib. Həyətyanı ərazi abadlaşdırılıb, mindən çox müxtəlif növ həmişəyaşıl ağac əkilib, uşaqların istirahəti üçün əyləncə qurğuları quraşdırılıb.

# Paytaxtın Nərimanov rayonundakı 80 saylı körpələr evi-uşaq bağçası yenidənqurmadan sonra istifadəyə verilib











Bakının Nərimanov rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı yenidən qurulan 80 saylı körpələr evi-uşaq bağçasının martın 6-da açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva açılışda iştirak edib.

Birinci vitse-prezident Mehriban Əliyeva 80 saylı körpələr evi-uşaq bağçasında yaradılmış şəraitlə tanış oldu.

Məlumat verildi ki, 1963-cü ildə istifadəyə verilən bağça 115 uşaq yerlik olmaqla 6 qrupla fəaliyyətə başlayıb. Əsaslı yenidənqurmadan sonra burada qrupların sayı 8-ə çatdırılıb və müəssisə 150 yerlik olub. Körpələr evi-uşaq bağçasında Azərbaycan və rus bölmələri ilə yanaşı, pilot layihə kimi ingilisdilli qrup da yaradılıb. Burada yaş yarımdan 6 yaşadək uşaqların təlim-tərbiyəsi ilə məşğul olmaq üçün bütün imkanlar var. Yenidənqurmadan əvvəl uşaq bağçasının dörd korpusundan ikisi birmərtəbəli, ikisi isə ikimərtəbəli binalardan ibarət idi. Əsaslı yenidənqurma zamanı birmərtəbəli korpuslarda əlavə ikinci mərtəbələr də inşa edilib. Yeni inşa olunan mərtəbələrdə əlavə iki qrup, musiqi zalı və digər metodiki otaqlar yaradılıb. Bundan əlavə, korpuslararası birmərtəbəli keçid sökülərək ikimərtəbəli keçid inşa edilib. Uşaq bağçası zəruri mebel-inventar və avadanlıqla təchiz edilib. Binada videomüşahidə, yanğınxəbərverici və müasir işıqlandırma sistemləri quraşdırılıb. Həyətyanı ərazidə geniş abadlıq işləri aparılıb, həmişəyaşıl ağaclar əkilib, təbii ot örtüyü salınıb, uşaqların istirahəti üçün kölgəliklər və əyləncə qurğuları quraşdırılıb, balacaların sevimli cizgi filmlərinin qəhrəmanlarının heykəlləri qoyulub. Bir sözlə, müəssisədə balacaların vaxtlarını maraqlı və səmərəli keçirmələri üçün hərtərəfli imkan yaradılıb.

# Birinci vitse-prezident Mehriban Əliyeva Səbail rayonunda əsaslı surətdə yenidən qurulan 157 nömrəli uşaq bağçasının açılışında iştirak edib









Bakının Səbail rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı surətdə yenidən qurulan 157 nömrəli uşaq bağçasının martın 6-da açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva açılışda iştirak edib.

Bayıl yaşayış sahəsində yerləşən uşaq bağçasının ikimərtəbəli binası 100 il əvvəl inşa olunmuşdu. Yüz uşağın tərbiyə aldığı binanın əsaslı təmirə ehtiyacı var idi. Bina sökülərək onun yerində üçmərtəbəli müasir bina tikilib. Burada işlər yüksək keyfiyyətlə və zövqlə yerinə yetirilib. Beləliklə, hazırda uşaq bağçasındakı şərait ən müasir tələblərə uyğunlaşdırılıb. Binanın giriş hissəsi, foye, qrup otaqları və zallar burada tərbiyə alan azyaşlılara uyğun xüsusi dizaynla işlənib. Otaqlar və dəhlizlər uşaqların sevimli nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilib, qrup otaqları zəruri inventarla, mebel dəstləri ilə təchiz edilib.

Ümumi sahəsi təxminən 2 min kvadratmetrə yaxın olan bağçanın binasında 110 uşaq tərbiyə alacaq. Bağçada uşaqların təlim-tərbiyəsi ilə ümumilikdə 25 nəfər məşğul olacaq. Buradakı 5 qrupun hər biri üçün geniş oyun və yataq otaqları və digər zəruri otaqlar, həmçinin musiqi və əyləncə zalları, tibb kabineti, müasir avadanlıqla təchiz olunmuş mətbəx və yeməkxana tikilib. Bir sözlə, bağçada yaradılan şərait uşaqların təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmağa imkan verəcək, həmçinin onların bilikli və zəngin dünyagörüşünə malik bir vətəndaş kimi formalaşmasında mühüm rol oynayacaq. Binada müşahidə kameraları, yanğından-mühafizə sistemi quraşdırılıb. Bağçanın yerləşdiyi ərazidə genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, müxtəlif çiçək və gül kolları, ağaclar əkilib.

## Azərbaycan qadınlarına fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında təhsil, səhiyyə və mədəniyyət sahələrində səmərəli fəaliyyətlərinə görə, 8 mart - Beynəlxalq Qadınlar Günü münasibətilə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar müəllim"**

Cavadova Dursun Salman qızı
Qasımova Fəridə Səfər qızı
Quliyeva Nazifə Halay qızı
Quliyeva Səadət Əlisahib qızı
Musayeva Rəhilə Nuhu qızı
Nurullayeva Zenfira İslam qızı
Şixəliyeva Elmira İmaməli qızı
Zeynalova Hüsniyyə Heydərağa qızı

**"Əməkdar həkim"**

Ağayeva Xırda Yusif qızı

**"Əməkdar mədəniyyət işçisi"**

Bağırzadə Zemfira Musa qızı
Malışova Sevda Lətif qızı

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2018-ci il*

## Azərbaycan qadınlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətlərinə görə, 8 mart - Beynəlxalq Qadınlar Günü münasibətilə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Abbasova Bəsirə Qurban qızı
Abbasova Kəmalə Məmmədyar qızı
Abdullayeva Nina Vasilyevna
Abdurahmanova Könül Ənvər qızı
Adişova İntizar Calair qızı
Ağabəyova Nərmin Hakim qızı
Ağayeva Xalidə Böyükxan qızı
Alxasova Sevda Ayaz qızı
Allahverdiyeva Müzəyəm Əlqulu qızı
Bayramova Afaq Sabir qızı
Bayramova Aida Ənvər qızı
Bayramova Sədaqət Əflatun qızı
Bayramova Svetlana Qulam qızı
Cəfərova Xanum Valeh qızı
Cəfərova Ziba Cəfər qızı
Dadaşova Rahilə Bəhlul qızı
Eyvazova Kubra Eyvaz qızı
Əhmədova Gülər Səfər qızı
Əhmədova Jalə Kərim qızı
Əhmədova Səbinə Siyavuş qızı
Əliyeva Kəmalə Heydər qızı
Əliyeva Ruxsarə Məcid qızı
Əlizadə Çiçək Sərvər qızı
Əmirova Təranə Mahmud qızı
Əsgərova Nurcamal Nurəddin qızı
Əsgərova Venera Yusif qızı
Əzimova Zülfiyyə Rəhim qızı
Fərəcova Səbinə Miradil qızı
Fətullayeva Dilara Haşım qızı
Hacıyeva Pərvanə Zakir qızı
Hacıyeva Şərafət Qəzənfər qızı
Hacızadə Rəna Sabir qızı
Heydərova Bənövşə Yusif qızı
Həbibova Kəbirə Alay qızı
Həsənova Əminə Səbi qızı
Həsənova Sürəyya Sovet qızı
Həsrətova Rəhilə Qəmbər qızı
Həşimova Həqiqət Cavanşir qızı
Hüseynova Sədaqət Qulu qızı
Xasıyeva Səbinə Bəlyar qızı
Xəlilova Hicran Aydın qızı
İbrahimova Aləmzər Tofik qızı
İbrahimova Məhəbbət Eyvazəli qızı
İbrahimova Məlahət İsmayıl qızı
İsgəndərova Gülər Mahmudağa qızı
İslamova Tacirə Əziz qızı
İsmayılova Sürəyya Əhməd qızı
İsrafilova Firuzə Hüseyn qızı
Kazımova Mehparə Musa qızı
Kərimova Vüsalə Kamil qızı
Kliçova Nairə Rauf qızı
Köçərli Afayət Cümşüd qızı
Qasımlı Şəlalə Qasım qızı
Quliyeva Çiçək Yaqub qızı
Quliyeva Sürayyə İslam qızı
Quliyeva Ulduz Məhərrəm qızı
Quliyeva Zərifə Rzaqulu qızı
Qurbanova Cəmilə Fazil qızı
Lazımova Şəlalə Cəlal qızı
Məmmədova Bənövşə Tahir qızı
Məmmədova Esmira Əşrəf qızı
Məmmədova İradə Nemət qızı
Məmmədova Mahirə Əmir qızı
Mikayılova Tatyana Anatolyevna
Mövsümova Lətifə Əjdər qızı
Murtuzayeva Xatirə Müslüm qızı
Mustafayeva Rəna Rəşid qızı
Mürşüdlü Elmira Zöhrab qızı
Nəbizadə Sevinc Fikrət qızı
Nəsirova Nuranə Tofiq qızı
Nuriyeva Reyhan İmran qızı
Orucova Arzu Vahid qızı
Orucova Mahizər Şəmil qızı
Osmanova Şəhanə Məcid qızı
Rəhimova Gültəkin Seymur qızı
Rəhimova Səfurə Firudun qızı
Sadıxova Sevinc Raqif qızı
Seyidova Nüşabə Mirhəbib qızı
Sədullayeva Sevinc Nəriman qızı
Sultanova Yeganə Teymur qızı
Süleymanova Namidə Abdulla qızı
Süleymanova Ruhiyyə Hüseyn qızı
Şərifova Zümrüd Xəlil qızı
Şirəliyeva Firəngiz Məmməd qızı
Şirinova Esmira Aydın qızı
Yusifova Kamilə Şəmsəddin qızı
Zurnayeva Xanım Qafar qızı

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2018-ci il*

## İmişli "ASAN Həyat" kompleksinin layihələndirilməsi və tikintisi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ölkədə vətəndaşlara göstərilən dövlət xidmətlərinin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyalar tətbiq edilməklə həyata keçirilməsi məqsədilə bugünədək 12 "ASAN xidmət", 2 "ASAN Kommunal" və 3 "ABAD" mərkəzinin fəaliyyəti təşkil edilmişdir. Vahid standartlar çərçivəsində idarə olunan mərkəzlərin fəaliyyəti ilə əlaqədar 3 minədək vətəndaşın məşğulluğu təmin edilmiş, 13 mindən çox gənc mərkəzlərdə könüllü fəaliyyətinə cəlb edilmişdir.

"ASAN Həyat" kompleksləri tərkibində yeni iş yerləri yaradılmış, "ABAD" mərkəzləri özünüməşğulluq proqramlarının icrasına öz töhfəsini vermişdir. Ümumilikdə "ASAN" mərkəzləri vasitəsilə 19 milyondan çox vətəndaş müraciəti cavablandırılmış, xidmətlərin göstərilməsində vətəndaş məmnunluğu daima yüksək səviyyədə saxlanılmışdır.

Bu sahədə işlərin davam etdirilməsinin vacibliyini nəzərə alaraq Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. İmişli "ASAN Həyat" kompleksinin layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.52.2-ci yarımbəndində göstərilmiş məbləğin 19,9 milyon (on doqquz milyon doqquz yüz min) manatı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 mart 2018-ci il*

# Yaşayış məntəqələrinin qazlaşdırılması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Son illər əhalinin təbii qaza tələbatının təmin edilməsi istiqamətində bir sıra vacib tədbirlər həyata keçirilmiş, qaz təchizatı infrastrukturu yenidən qurulmuş, təbii qazla təchiz olunmayan yaşayış məntəqələrinə qaz kəmərləri çəkilmiş, əhaliyə verilən təbii qazın dəyərinin tam həcmdə ödənilməsini təşkil etmək məqsədilə sayğaclaşma işləri aparılmışdır.

Əhalinin təbii qaza olan tələbatının ödənilməsi məqsədi ilə həyata keçirilmiş qazlaşdırma işləri nəticəsində ölkə üzrə qazlaşma səviyyəsi 93 faizə çatdırılmış və bu önəmli strateji sosial layihənin həyata keçirilməsində dövlət tərəfindən yüksək maliyyə dəstəyi göstərilmişdir.

Yaşayış məntəqələrinin qazlaşdırılması işini davam etdirməyin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2018-ci ilin sonuna kimi ölkədə qazlaşma səviyyəsinin 95 faizə çatdırılması istiqamətində işlərin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.41.1-ci yarımbəndində göstərilmiş məbləğin 100,0 (yüz) milyon manatı Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə ayrılsın (siyahı əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 mart 2018-ci il*

# Həsən Turabovun 80 illik yubileyinin keçirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2018-ci ilin mart ayında Azərbaycan teatr və kino sənətinin görkəmli nümayəndəsi, Respublika Dövlət mükafatları laureatı, xalq artisti Həsən Səttar oğlu Turabovun anadan olmasının 80-ci ildönümü tamam olur.

Azərbaycanın çoxəsrlik zəngin mədəni ənənələrindən lazımınca bəhrələnən Həsən Turabov fitri istedadının verdiyi imkanlar sayəsində səhnəyə yeniliklər gətirməklə özünəməxsus üslubunu yaratmış və milli mədəniyyət salnaməsinə parlaq səhifələr yazmışdır. Sənətkarın çoxsaylı tamaşalarda və ekran əsərlərində böyük ustalıqla canlandırdığı mürəkkəb xarakterli, müxtəlif dünyagörüşlü obrazlar ölkə teatrı tarixinin və kinematoqrafiyasının nailiyyətləri sırasında həmişəlik yer tutmuş qiymətli sənət inciləridir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və milli mədəniyyətin inkişafında təqdirəlayiq xidmətlərini nəzərə alaraq, görkəmli sənətkar Həsən Turabovun 80 illiyinin qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi xalq artisti Həsən Turabovun 80 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 mart 2018-ci il*

# Prezidentin Mətbuat Xidmətinin məlumatı

Martın 6-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Prezident Rəcəb Tayyib Ərdoğan Respublika Narkoloji Mərkəzində baş vermiş yanğın nəticəsində insanların həlak olması ilə bağlı dövlətimizin başçısına və həyatlarını itirənlərin ailə üzvlərinə başsağlığı verib, mərhumların doğmalarına səbir diləyib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev göstərilən diqqətə və başsağlığına görə minnətdarlığını bildirib.

Söhbət zamanı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələrinin müxtəlif aspektləri müzakirə edilib.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Bakı şəhərindəki Respublika Narkoloji Mərkəzində baş vermiş və insan itkisinə səbəb olmuş faciəli yanğın xəbəri məni dərindən sarsıtdı.

Çin hökuməti və xalqı adından, eləcə də şəxsən öz adımdan həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir, xəsarət alanlara tezliklə sağalmalarını arzuladığımı çatdırmağınızı Sizdən xahiş edirəm.

*Hörmətlə,*

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Bakı şəhərinin Xətai rayonundakı Respublika Narkoloji Mərkəzində çoxsaylı insan tələfatı və xeyli insanın xəsarət alması ilə nəticələnmiş yanğınla əlaqədar səmimi başsağlığımı qəbul edin.

Bu çətin anda Türkmənistan xalqı və hökuməti adından, həmçinin şəxsən öz adımdan xahiş edirəm, həlak olanların bütün doğmalarına və yaxınlarına onların kədərinə şərik olduğumu və səbir dilədiyimi, xəsarət alanlara tezliklə sağalmalarını arzuladığımı çatdırasınız.

*Dərin hörmətlə,*

***Qurbanqulu BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti***

# Məcburi dövlət sosial sığorta haqları üzrə borclar silinəcək



Dünən Milli Məclisin növbəti plenar iclası keçirildi. Spiker Oqtay Əsədov iclası açaraq gündəliyə 24 məsələnin daxil olduğunu bildirdi.

İlk məsələ Birləşmiş Millətlər Təşkilatının "Beynəlxalq müqavilələrdə elektron kommunikasiyaların istifadəsinə dair Konvensiya"sına qoşulmaq haqqında Azərbaycan Respublikasının qanun layihəsi barədə oldu. Deputatlar çıxışlarında Azərbaycanın beynəlxalq konvensiyalara qoşulmasının önəmini və müzakirəyə çıxarılan məsələnin vacibliyini qeyd etdilər.

Sonra plenar iclasda 13 məsələ bir paketdə müzakirə edildi. Belə ki, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında", "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında", "Dövlət qulluğu haqqında", "Yaşayış minimumu haqqında", "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Sosial sığorta haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Sosial müavinətlər haqqında" qanunlara, "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"yə və Seçki Məcəlləsinə dəyişikliklər edilməsi ilə bağlı müzakirələr aparıldı. Uyğunlaşdırma xarakterli dəyişikliklər deputatlar tərəfindən qəbul edildi.

Digər iki məsələyə - "Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında" və "İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" qanun layihələrinə də baxıldı. Qeyd olundu ki, dövlət başçısının sərəncamı ilə yaradılan Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyətə başlamasından qısa vaxt keçməsinə baxmayaraq, bu istiqamətdə müəyyən nailiyyətlərə nail olunub. Nəzərdə tutulan dəyişikliklər bu sahədə çevikliyi daha da artıracaq.

"Məcburi dövlət sosial sığorta sahəsində borcların tənzimlənməsi haqqında" qanun layihəsi də maraqla qarşılandı. Bildirildi ki, qanun layihəsinə əsasən, sığortaedənlərin müvafiq icra hakimiyyəti orqanının uçot sistemində mövcud olan 2006-cı ilin 1 yanvar tarixinə yaranmış və 2018-ci ilin 1 aprel tarixinədək ödənilməmiş məcburi dövlət sosial sığorta haqları üzrə borcları tam məbləğdə silinir. Eyni zamanda qanun layihəsinə görə, sığortaedənlərin müvafiq icra hakimiyyəti orqanının uçot sistemində mövcud olan 2015-ci ilin 1 yanvar tarixinədək yaranmış və 2018-ci ilin 1 aprel tarixinədək ödənilməmiş məcburi dövlət sosial sığortası qaydalarının pozulmasına görə tətbiq edilmiş maliyyə sanksiyaları (hesablanmış penya) üzrə borcları tam məbləğdə silinir. Qeyd olundu ki, tətbiq edilmiş maliyyə sanksiyaları üzrə borcların silinməsi müəyyən olunmuş konkret qaydalar üzrə həyata keçiriləcək.

Bundan başqa, deputatlar "Ələt azad iqtisadi zonası haqqında" qanun layihəsini ikinci oxunuşda müzakirə etdilər. 5 fəsil 30 maddədən ibarət olan sənəd yekdilliklə qəbul edildi.

İclasda "Yaşıllıqların mühafizəsi haqqında", "Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında", "İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında", "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında", "Dövlət rüsumu haqqında" və "Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" qanun layihələri də səs çoxluğu ilə qəbul edildi.

***Elnur HADIYEV,***
***"Azərbaycan"***

*Azərbaycan Respublikası Prezidentinin*
*2018-ci il 5 mart tarixli sərəncamı ilə təsdiq edilmişdir*

# 2018-ci ildə qazlaşdırılması nəzərdə tutulan yaşayış məntəqələri və ərazilərin Siyahısı

| Sıra №-si | Yaşayış məntəqəsi |
|---|---|
| | **Lənkəran rayonu** |
| 1 | Mollakənd kəndi |
| 2 | Şovu kəndi |
| | **Şəki rayonu** |
| 1 | Çayqaraqoyunlu kəndi |
| 2 | Baş Küngüt kəndi |
| | **Yevlax rayonu** |
| 1 | Rüstəmli kəndi |
| 2 | Qaraməmmədli kəndi |
| | **Ağcabədi rayonu** |
| 1 | Biləyən kəndi |
| 2 | Şotlanlı kəndi |
| | **Ağdaş rayonu** |
| 1 | Orta Ləki kəndi |
| 2 | Aşağı Nemətabad kəndi |
| | **Ağsu rayonu** |
| 1 | Nuran kəndi |
| | **Astara rayonu** |
| 1 | Rinə kəndi |
| | **Beyləqan rayonu** |
| 1 | Əmirzeydli kəndi |
| | **Bərdə rayonu** |
| 1 | Hacıbəyli kəndi |
| 2 | Kafarlı kəndi |
| | **Cəlilabad rayonu** |
| 1 | Cəlayir kəndi |
| | **Daşkəsən rayonu** |
| 1 | Quşçu kəndi |
| 2 | Bayan kəndi |
| | **Gədəbəy rayonu** |
| 1 | Çaldaş kəndi |
| 2 | Səbətkeçməz kəndi |
| | **Goranboy rayonu** |
| 1 | Həmənli kəndi |
| | **Göyçay rayonu** |
| 1 | Kürdşaban kəndi |
| 2 | Şəkili kəndi |
| | **Göygöl rayonu** |
| 1 | Şəhriyar kəndi |
| 2 | Kərəmli kəndi |
| 3 | Çaykənd kəndi |
| | **Xaçmaz rayonu** |
| 1 | Krasnı Xutor kəndi |
| | **İmişli rayonu** |
| 1 | Aranlı kəndi |
| 2 | Qızılkənd kəndi |
| | **İsmayıllı rayonu** |
| 1 | Lahıc qəsəbəsi |
| 2 | Qaraqaya kəndi |
| 3 | Gəndov kəndi |
| 4 | Namazgah kəndi |
| | **Kürdəmir rayonu** |
| 1 | Qarasu kəndi |
| | **Qax rayonu** |
| 1 | Meşəbaş kəndi |
| | **Qəbələ rayonu** |
| 1 | Mıxlıqovaq kəndi |
| 2 | Kötüklü kəndi |
| | **Qobustan rayonu** |
| 1 | Şıxzahırlı kəndi |
| | **Quba rayonu** |
| 1 | Ərməki kəndi |
| 2 | Güneyməhlə kəndi |
| | **Qusar rayonu** |
| 1 | Piral kəndi |
| 2 | Cibir kəndi |
| | **Lerik rayonu** |
| 1 | Veri kəndi |
| | **Masallı rayonu** |
| 1 | Tatyanoba kəndi |
| 2 | Güllütəpə kəndi |
| | **Neftçala rayonu** |
| 1 | Ərəbqardaşbəyli kəndi |
| 2 | Cəngan kəndi |
| | **Oğuz rayonu** |
| 1 | Muxas kəndi |
| | **Saatlı rayonu** |
| 1 | Məzrəli kəndi |
| 2 | Azadkənd kəndi |
| | **Sabirabad rayonu** |
| 1 | Yuxarı Axtaçı kəndi |
| 2 | Yastıqobu kəndi |
| | **Salyan rayonu** |
| 1 | Düzənlik kəndi |
| 2 | Peyk kəndi |
| | **Siyəzən rayonu** |
| 1 | Qozağacı |
| | **Şabran rayonu** |
| 1 | Sumağava Qazma kəndi |
| 2 | Qorğan kəndi |
| | **Şamaxı rayonu** |
| 1 | Bağırlı kəndi |
| 2 | Ovçulu kəndi |
| | **Şəmkir rayonu** |
| 1 | Yeni Göyçə kəndi |
| 2 | Şəmkir şəhərinin "Sərxan" adlanan ərazisi |
| 3 | Qaracəmirli kəndində yeni massiv |
| | **Tərtər rayonu** |
| 1 | Soyulan kəndi |
| 2 | Hacallı kəndi |
| 3 | Alışarlı kəndi |
| 4 | Rəcəbli kəndi |
| 5 | Kövdadıq kəndi |
| 6 | Bildirçinli kəndi |
| 7 | Umudlu kəndi |
| 8 | Aşağı Qapanlı kəndi |
| | **Tovuz rayonu** |
| 1 | Hunanlar kəndi |
| 2 | Əhmədabad kəndi |
| | **Ucar rayonu** |
| 1 | Ramal kəndi |
| 2 | Əlikənd kəndi |
| | **Yardımlı rayonu** |
| 1 | Gavran kəndi |
| | **Zaqatala rayonu** |
| 1 | Bəhmətli kəndi |
| 2 | Lahıc kəndi |
| | **Zərdab rayonu** |
| 1 | Şıxbağı kəndi |
| 2 | Nəzəralılı kəndi |
| **Məcburi köçkünlərin yaşadığı ərazilər üzrə** | |
| | 3 rayonda 4 qəsəbə |
| | **Ağdam rayonu** |
| 1 | Ergi adlanan ərazidə salınmış qəsəbə (Ağdam, Şuşa və Laçından olan məcburi köçkünlər) |
| 2 | "Mirzələr" qış otlağı ərazisində salınmış yaşayış massivi (Şuşadan olan məcburi köçkünlər) |
| | **Ağcabədi rayonu** |
| 1 | Taxtakörpü adlanan ərazidə salınmış qəsəbə (Laçından olan məcburi köçkünlər) |
| | **Sabirabad rayonu** |
| 1 | Rüstəmli kəndinin ərazisində salınmış qəsəbə (Zəngilandan olan məcburi köçkünlər) |

# Cəbhə bölgəsində ön xətt bölmələrinin hazırlıq vəziyyəti yoxlanılıb



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhə bölgəsində yerləşən ön xətt bölmələrində olublar.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə hərbi hissənin ərazisində ucaldılan ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub.

Sonra nazir müdafiənin ön xəttindəki bölmələrdə üzbəüz düşmən mövqelərini müşahidə edib, əməliyyat şəraiti ilə tanış olub, birləşmələrin və hərbi hissələrin döyüşə hazırlıq vəziyyətini yoxlayıb. Müdafiə Nazirliyinin rəhbərliyi qoşunların döyüş qabiliyyətini, maddi-texniki təminatını, silah-sursat və hərbi texnika ilə təchizatını, həmçinin şəxsi heyətin mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirib.

Hərbi qulluqçular işğal altındakı torpaqlarımızın tezliklə azad edilməsi üçün daim hazır olduqlarını bildiriblər.

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 102 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 102 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Şavarşavan və İcevan rayonunun Berkaber kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Məzəm və Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Nəmirli, Şıxlar, Cəvahirli, Qaraqaşlı, Şirvanlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Zaqatala sərhəd dəstəsinin yaradılmasının 25-ci ildönümü qeyd olunub

Dünən Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Zaqatala sərhəd dəstəsinin yaradılmasının 25-ci ildönümünə həsr olunmuş təntənəli tədbir keçirilmişdir.





Dövlət himni oxunduqdan sonra Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbrik teleqramı şəxsi heyətə çatdırılmışdır.

Tədbirdə çıxış edən Dövlət Sərhəd Xidməti rəisinin müavini - Sərhəd Qoşunlarının Komandanı general-mayor Əsgər Xəlilov müasir dövlətimizin banisi ulu öndər Heydər Əliyevin milli inkişaf konsepsiyasını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan sərhəd mühafizəsinə ali diqqət və qayğısı sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir standartlar səviyyəsinə qaldırıldığını, dövlət sərhədlərimizin toxunulmazlığının təmin olunması istiqamətində davamlı dinamik inkişafa nail olunduğunu xüsusi qeyd etmişdir.

Respublikamızın şimal-qərb sərhədlərinin keşiyində dayanan, yarandığı ilk vaxtlar heç bir zəruri sərhəd infrakstrukturuna malik olmayan Zaqatala sərhəd dəstəsinin ötən dövr ərzində böyük inkişaf yolu keçərək formalaşması və dövlət sərhədinin etibarlı mühafizəsinin təşkilində yüksək nailiyyətlər əldə etməsi vurğulanmışdır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərhəd mühafizəsinin inkişafı məsələlərinə xüsusi diqqət və qayğı göstərməsi, tez-tez sərhədçilərlə görüşərək onların problemləri ilə maraqlanması, tövsiyə və tapşırıqlarını verməsi böyük iftixar hissi ilə qeyd olunmuşdur.

Tədbirin sonunda incəsənət ustaları sərhədçilər qarşısında maraqlı konsert proqramı ilə çıxış etmişlər.

***"Azərbaycan"***

## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA



# Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib



Martın 6-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə komissiyanın martın 2-də keçirilmiş iclasının protokolu təsdiq edilib.

Sonra 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydası komissiya üzvləri tərəfindən müzakirə edildikdən sonra təsdiq olunub və 5347803 (beş milyon üç yüz qırx yeddi min səkkiz yüz üç) seçki bülleteninin mətbəə üsulu ilə hazırlanması qərara alınıb.

İclasda Yeni Azərbaycan Partiyası tərəfindən Mərkəzi Seçki Komissiyasına məşvərətçi səs hüquqlu üzv təyin edilmiş Mirzəzadə Aydın Böyükkişi oğlunun üzvlüyü də təsdiq olunub.

Komissiyanın iclasında, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib.

Kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdikləri iclasda cari məsələlərə də baxılıb.

**Qərar № 9/55**

## 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydasına dair

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 99.1 - 99.4-cü və 199-cu maddələrinin tələbinə görə, seçki bülletenlərinin mətni və forması, onların sayı, hazırlanmasına aid tələblər Mərkəzi Seçki Komissiyasının qərarı ilə səsvermə gününə ən geci 35 gün qalmış təsdiq edilməli, qeydə alınmış seçicilərin sayından 3 faizdən artıq olmamaq şərtilə səsvermə gününə ən azı 10 gün qalmış Mərkəzi Seçki Komissiyasının nümayəndələrinin müşahidəsi altında müvafiq qaydada hazırlanmalıdır.

2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində istifadə ediləcək seçki bülletenləri ilə əlaqədar yuxarıda göstərilən qayda və şərtlər əsas götürülməli, mövcud seçki dairələri üzrə həmin bülletenlərin bir-bir və ardıcıl olaraq kəsilən yuxarı sol küncü nömrələnməli, namizədlər barəsində məlumatlardan sağda boş kvadrat, yuxarıda doldurulması qaydası haqqında izah, yuxarı sağ küncündə möhür yeri, aşağı sağ küncündə isə ləğvetmə xətti yerləşdirilməli, qeydə alınmış hər bir namizədin əlifba sırası qaydasında soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yeri, əsas iş və ya xidmət yeri (bu olmadıqda - fəaliyyət növü), onları irəli sürmüş subyektlərin adı, siyasi partiyalar (siyasi partiya blokları) tərəfindən namizədliyi irəli sürülən qeydə alınmış namizədin mənsub olduğu siyasi partiyanın qısa adı, öz təşəbbüsü ilə və ya bilavasitə seçicilər tərəfindən irəli sürülən qeydə alınmış namizədin öz arzusu ilə partiya mənsubiyyəti göstərilməlidir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.6-cı, 25.2.11-ci, 28.2-ci, 28.4-cü, 99-cu və 199-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində mövcud seçki dairələri üzrə bir-bir və ardıcıl olaraq kəsilən yuxarı sol küncü nömrələnmiş, namizədlər barəsində məlumatlardan sağda boş kvadrat, yuxarıda doldurulması qaydası haqqında izah, yuxarı sağ küncündə möhür yeri, aşağı sağ küncündə isə ləğvetmə xətti yerləşdirilmiş, habelə qeydə alınmış hər bir namizədin əlifba sırası qaydasında soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yeri, əsas iş və ya xidmət yeri (bu olmadıqda - fəaliyyət növü), onları irəli sürmüş subyektlərin adı, siyasi partiyalar (siyasi partiya blokları) tərəfindən namizədliyi irəli sürülən qeydə alınmış namizədin mənsub olduğu siyasi partiyanın qısa adı, öz təşəbbüsü ilə və ya bilavasitə seçicilər tərəfindən irəli sürülən qeydə alınmış namizədin öz arzusu ilə partiya mənsubiyyəti göstərilmiş seçki bülleteninin mətni və forması təsdiq edilsin.
2. Ölkə üzrə qeydə alınmış seçicilərin ümumi sayından 3 faiz artıq olmamaqla, cəmi 5 347 803 (beş milyon üç yüz qırx yeddi min səkkiz yüz üç) ədəd seçki bülleteni Azərbaycan Respublikası Milli Məclisi Aparatının mətbəəsində Mərkəzi Seçki Komissiyasının təmsilçiliyə uyğun 3 üzvünün müşahidəsi altında mətbəə üsulu ilə hazırlansın.
3. Qərarın icrası öz səlahiyyətləri daxilində Mərkəzi Seçki Komissiyasının Katibliyinə və Milli Məclis Aparatının mətbəəsinə həvalə edilsin.
4. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*06.03.2018*

**Qərar № 9/54**

## Mərkəzi Seçki Komissiyasının 2 mart 2018-ci il tarixli iclas protokolunun təsdiq edilməsi barədə

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2 mart 2018-ci il tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*06.03.2018*

**Qərar № 9/56**

## 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində Yeni Azərbaycan Partiyasının məşvərətçi səs hüquqlu üzvünün təsdiq edilməsi haqqında

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədi qeydə alınmış Yeni Azərbaycan Partiyası Azərbaycan Respublikası Milli Məclisinin deputatı Aydın Böyükkişi oğlu Mirzəzadə Mərkəzi Seçki Komissiyasına məşvərətçi səs hüquqlu üzv təyin edilmiş və həmin şəxsin üzvlüyünün təsdiq edilməsi üçün müvafiq sənədləri Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, həmin şəxsin məşvərətçi səs hüquqlu üzv qismində təsdiq edilməsi üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 21-ci, 28.2-ci, 28.4-cü və 182.4-cü maddələrinə əsasən **qərara alır:**

1. 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində Azərbaycan Respublikası Milli Məclisinin deputatı Aydın Böyükkişi oğlu Mirzəzadə Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Komissiyasında məşvərətçi səs hüquqlu üzvü kimi təsdiq edilsin.
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*06.03.2018*

**Qərar № 9/57**

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

Seyidhüseyn Ağaseyid oğlu Hüseynov 63 saylı Sabirabad birinci, Aran Abbasqulu oğlu Məhəmmədli 81 saylı Beyləqan seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*06.03.2018*

# Prezidentliyə namizədlərin imza vərəqələrinin yoxlanılması prosesi KİV-ə və ictimaiyyətə tam açıqdır





Aprelin 11-də keçiriləcək Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar prezidentliyə namizədlərin səlahiyyətli nümayəndələri tərəfindən təqdim edilən imza vərəqələri və digər seçki sənədlərinin işçi qrup tərəfindən yoxlanılması prosesi davam edir.

AZƏRTAC xəbər verir ki, bu fikri jurnalistlərə açıqlamasında Mərkəzi Seçki Komissiyasının üzvü və işçi qrupun rəhbəri Etibar Quliyev deyib. O bildirib ki, proses kütləvi informasiya vasitələrinə, siyasi partiyaların üzvlərinə, ictimaiyyətə tam açıqdır. Bundan əvvəlki seçkilərdə olduğu kimi, bu seçkilərdə də maraqlı tərəflərin namizədlərin imza vərəqələrinin və digər seçki sənədlərinin yoxlanması prosesini müşahidə etmələrinə şərait yaradılıb. Səlahiyyətli nümayəndələr, siyasi partiyaların təmsilçiləri, beynəlxalq təşkilatların və KİV-in nümayəndələri, ümumiyyətlə, istənilən maraqlı şəxs prosesi müşahidə edə bilər. İndiyə qədər təsdiqlənmiş yeddi namizədin imza vərəqələri və digər seçki sənədləri təqdim olunub.

Etibar Quliyev qeyd edib ki, imzaların və digər sənədlərin yoxlanılması prosesindəki işçi qrupuna Ədliyyə, Maliyyə, Daxili İşlər nazirliklərinin, Hesablama palatasının, Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin peşəkar mütəxəssisləri cəlb olunublar. Yoxlamanın nəticəsində ekspert rəyi verilir və sonda protokol tərtib edilərək Mərkəzi Seçki Komissiyası üzvlərinin müzakirəsinə göndərilir. Yoxlamalar zamanı aşkar olunan çatışmazlıqlar barədə Seçki Məcəlləsinin müvafiq maddələri əsasında 48 saat ərzində namizədlərə və səlahiyyətli nümayəndələrə məlumat verilib. Mərkəzi Seçki Komissiyasında namizədlər tərəfindən təqdim olunmuş imza vərəqələrinin və digər seçki sənədlərinin yoxlanılması prosesi hər zaman açıq və şəffaf olub. 2018-ci il aprelin 11-nə təyin edilmiş prezident seçkiləri ilə əlaqədar namizədliyi irəli sürülmüş şəxslərin imza vərəqələri Mərkəzi Seçki Komissiyasına təqdim olunandan sonra bütün maraqlı tərəflər, həm namizədlərin səlahiyyətli nümayəndələri, həm siyasi partiyaların və KİV-in təmsilçiləri mütəmadi şəkildə komissiyaya gələrək imza vərəqələrinin və digər sənədlərin yoxlanılması prosesində tam şəffaf şəkildə iştirak ediblər.

Proses martın 12-si saat 18.00-dək davam edəcək.

# "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında" kitabı Qubada ictimai müzakirəyə çıxarılıb







Martın 6-da "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında" kitabı Qubada şimal bölgəsi rayonlarının ictimaiyyət nümayəndələrinə təqdim olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, təqdimatdan öncə ümummilli lider Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsi ziyarət olunub, önünə gül dəstələri düzülüb.

Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə çıxış edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) şöbə müdiri Yadigar Məmmədli bildirib ki, Azərbaycan, rus və ingilis dillərində nəşr olunan kitabda Prezident İlham Əliyevin 2003-cü ildən bəri müsahibə və çıxışlarında multikulturalizmin Azərbaycan modeli haqqında dəyərli fikirləri toplanıb. Nəşrdə dövlət başçısının təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanın multikulturalizmin, o cümlədən mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafı istiqamətində həyata keçirdiyi layihələrdən, həm ölkə daxilində, həm də beynəlxalq miqyasda bu sahədə əldə edilən nailiyyətlərdən bəhs olunur.

Kitabın ideya müəllifi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev, məsləhətçisi Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənov, tərtibçiləri Prezident Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, fəlsəfə elmləri doktoru, professor Etibar Nəcəfov, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri, akademik Kamal Abdulla, AZƏRTAC-ın baş redaktoru, siyasi elmlər üzrə fəlsəfə doktoru Cavid Bədəlov və BBMM-in şöbə müdiri Sərxanbəy Xuduyevdir.

Yadigar Məmmədli bildirib ki, Azərbaycanda milli və dini azlıqlarla bağlı aparılan dövlət siyasəti hər zaman müvafiq beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilib. Ölkəmizin bu sahədə həyata keçirdiyi siyasət və əldə etdiyi təcrübə başqa dövlətlər üçün də nümunə göstərilir. Multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyini, eləcə də ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyətini nəzərə alan Prezident İlham Əliyevin fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb.

AMEA Folklor İnstitutunun direktoru akademik Muxtar İmanov çıxışında ölkəmizdə multikulturalizm, tolerantlıq və dini dözümlülüyün təşəkkül taparaq inkişaf etməsinin dövlət siyasəti səviyyəsinə yüksəlməsinin Azərbaycanın qədim dövlətçilik tarixi və milli-mədəni dəyərlərin inkişafından qaynaqlandığını qeyd edib. Bildirilib ki, tarixən müxtəlif etnomədəni qrupların və dini konfessiyaların birgə yaşadığı məkan olan ölkəmizdə siyasi multikulturalizmin banisi ulu öndər Heydər Əliyevdir. Ulu öndər ikinci dəfə xalqın dəvəti ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanı nəinki vətəndaş müharibəsindən qurtardı, eyni zamanda, ölkəmizdə mövcud olan bütün milli azlıqları vahid azərbaycançılıq ideologiyası ətrafında birləşdirdi. Bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın multikulturalizm dəyərlərinə sahib olması, onu təşviq etməsi aparıcı beynəlxalq təşkilatlar və dünya birliyi tərəfindən də yüksək dəyərləndirilir.

BBMM-in baş məsləhətçisi Tofiq Abbasov kitabda multikulturalizmin Azərbaycanda həyata keçirilən siyasətin mühüm bir istiqaməti kimi təqdim olunduğunu vurğulayıb. Qeyd edib ki, nəşrdə multikulturalizmin bir sıra nəzəri məsələləri, Azərbaycan multikulturalizm modelinin xüsusiyyətləri öz əksini tapıb. Kitabda Azərbaycan dövlətinin multikulturalizm sahəsində böyük təcrübəsinə dair önəmli fikirlər yer alıb və bu da digər ölkələr, xüsusilə də hazırda multikulturalizm siyasətini həyata keçirməkdə ciddi problemlərlə üzləşən Qərb ölkələri üçün vacibdir.

Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etmək istiqamətində BBMM-in gördüyü işlər barədə məlumat verən T.Abbasov "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında" kitabının ölkəmizlə yanaşı, xaricdə də elmi müzakirələrinin təşkil ediləcəyini söyləyib.

İctimai müzakirələrdə iştirak edənlər dövlət başçısının kitabda yer almış fikirlərinin bütövlükdə Azərbaycan multikulturalizmi haqqında tam təsəvvür formalaşdırdığını söyləyiblər.

Qeyd edək ki, kitaba daxil olan sitatlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin AZƏRTAC tərəfindən yayılmış nitqlərindən, çıxışlarından və müsahibələrindən götürülüb.

*Mark HAUPTMAN:*

# "Azərbaycan Almaniya üçün Qafqazda ən mühüm iqtisadi tərəfdaşdır"

Bundestaqın deputatı Mark Hauptman (CDU-Xristian Demokratlar İttifaqı) Azərbaycan səfirliyi və Alman-Atlantika Cəmiyyəti tərəfindən dəvət edildiyi Cənubi Qafqazda sabitlik və təhlükəsizlik məsələlərinə həsr olunmuş 6-cı simpoziumda çıxış edib.

AZƏRTAC xəbər verir ki, Ermənistanın işğal etdiyi Dağlıq Qarabağ regionundakı vəziyyəti xatırladan azərbaycanlı nümayəndələr Almaniyanın bu münaqişənin sülh yolu ilə həllinə cəhdlər göstərməsindən məmnunluqlarını ifadə ediblər.

M.Hauptman fraksiyadan olan həmkarı Yoaxim Pfayfer ilə birgə sözügedən məsələ ilə bağlı bildirib ki, hazırkı beynəlxalq nizama görə dövlət sərhədlərinin zorakı və beynəlxalq hüquqa zidd şəkildə yenidən çəkilməsi tamamilə yolverilməzdir. O deyib: "Dağlıq Qarabağ münaqişəsi ilə daha yaxından məşğul olsaq yaxşı olardı. Belə ki, bu münaqişə nəinki çoxsaylı insan itkisinə və qeyri-sabitliyə səbəb olur, eləcə də regionun iqtisadi inkişafını ləngidir".

Simpoziumda təhlükəsizlik məsələləri ilə yanaşı, iki ölkə arasındakı iqtisadi münasibətlər də müzakirə mövzusu olub. Vurğulanıb ki, Azərbaycan Almaniya üçün Qafqazda ən mühüm iqtisadi tərəfdaşdır. Enerji sahəsindəki vacib əməkdaşlıqdan əlavə, müxtəlif infrastruktur layihələrinin həyata keçirilməsi sahəsində də geniş potensial mövcuddur. "Almaniya burada xüsusilə kiçik və orta müəssisələri dəstəkləməlidir ki, onlar beynəlmiləlləşmədə öz şanslarından istifadə edə bilsinlər. Federal İqtisadiyyat Nazirliyi uzun müddətdən sonra yenidən CDU-nun rəhbərliyinə keçdiyi üçün bu məsələdə münbit şəraitin yaradılması imkanlarından daha yaxşı istifadə olunmasını əlverişli fürsət kimi görürəm", - deyə Bundestaqın İqtisadiyyat və Enerji Komitəsinin üzvü M.Hauptman bildirib.

Deputat sonda bu il keçirilməsi planlaşdırılan Almaniya-Azərbaycan İqtisadi Dialoqundan söhbət açıb. Bildirib ki, Azərbaycan səfirliyi ilə birgə keçirilməsi nəzərdə tutulan bu tədbir iki ölkə arasındakı əməkdaşlığı yalnız nəzəri cəhətdən deyil, eləcə də konkret şəkildə inkişaf etdirməlidir. Sözügedən tədbir Almaniya və Azərbaycan şirkətlərinə birbaşa dialoqa girmək və eyni zamanda, parlament, nazirliklər və diplomatiyanı təmsil edən qərarverici şəxslərlə bir araya gəlmək üçün imkanlar yaratmalıdır.

# Azərbaycan və Türkiyə sosial müdafiə sahəsində əməkdaşlığı genişləndirirlər



Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Türkiyə Respublikasının Azərbaycandakı səfirliyinin əmək və sosial müdafiə üzrə yeni müşaviri Ahmet Açıkgöz ilə tanışlıq görüşü olub. Görüşdə Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral da iştirak edib.

Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov A.Açıkgözü yeni vəzifəyə təyin olunması münasibəti ilə təbrik edərək Azərbaycan və Türkiyə arasında bütün sahələrdə yüksək səviyyədə olan əlaqələrin əmək və sosial müdafiə sahəsini də əhatə etdiyini vurğulayıb. O həm beynəlxalq təşkilatlar, həm də ikitərəfli formatda əməkdaşlığın daim inkişaf etdirildiyini diqqətə çatdırıb.

S.Müslümov Azərbaycan Prezidenti cənab İlham Əliyevin sosialyönümlü siyasətinə uyğun olaraq ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımlar, əmək və sosial müdafiə sisteminin təkmilləşdirilməsi yönündə aparılan islahatlar barədə müşavirə məlumat verib. Nazir həmçinin icra olunan aktiv əmək bazarı proqramlarını, əmək bazarının tənzimlənməsi sahəsində aparılan işləri diqqətə çatdırıb: “Müvafiq sahələrdə görülən işlər, aparılan islahatlarda qardaş ölkə olan Türkiyənin Əmək və Sosial Müdafiə Nazirliyi ilə əməkdaşlığa, geniş məlumat və təcrübə mübadilələrinə xüsusi önəm verilir. Ötən dövrdə həyata keçirilən qarşılıqlı səfərlər, imzalanan əməkdaşlıq sazişləri əlaqələrimizin inkişafına səbəb olub. Eyni zamanda, cari ilin fevral ayının əvvəllərində Türkiyə Respublikasının əmək və sosial müdafiə naziri xanım Jülide Sarıeroğlunun rəhbərliyi ilə nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində keçirilən görüşlər, iki nazirlik arasında Əmək və sosial müdafiə sahəsində əməkdaşlıq üzrə Birgə Daimi Komissiyanın 9-cu iclasının yekunu olaraq imzalanan protokol da ikitərəfli əməkdaşlığın xeyli genişlənməsinə imkan verib”.

Nazir bildirib ki, bu gün işçi qüvvəsinin əmək bazarında rəqabət qabiliyyətinin artırılması, sosial cəhətdən həssas əhali qrupları üçün inklüziv əmək bazarının inkişafı, qeyri-formal məşğulluq hallarının aradan qaldırılması, əmək münasibətlərinə nəzarət formalarının təkmilləşdirilməsi, əməyin təhlükəsizliyi və s. kimi aktual məsələlər mövcuddur. Türkiyənin müvafiq dövlət qurumu ilə əməkdaşlığımız həmin sahələrdə də davam etdirilir ki, bu da hər iki tərəf üçün faydalıdır.

S.Müslümov A.Açıkgözün iki ölkə arasında əmək və sosial müdafiə sahəsində əməkdaşlığın inkişafında öz töhfələrini verəcəyinə əminliyini ifadə edib.

A.Açıkgöz ötən dövrdə ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi, əmək və sosial müdafiə sahəsində də uğurlu əməkdaşlıq təcrübəsinin formalaşmasının məmnunluq doğurduğunu vurğulayıb. O bu istiqamətdə ikitərəfli əlaqələrin genişləndirilməsində öz səylərini göstərəcəyini bildirib.

Görüşdə iki ölkənin əmək və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlığının mövcud vəziyyəti və inkişaf perspektivləri ilə əlaqədar fikir mübadiləsi aparılıb.

# Fevral ayında “Azərişıq” ASC-yə “ASAN xidmət” vasitəsilə 330 sahibkar müraciət edib




Fevral ayının 15-dən etibarən “Azərişıq” ASC “ASAN xidmət” vasitəsilə daha bir yenilik etdi və bununla da sahibkarlıq obyektlərinin elektrik təchizatı şəbəkəsinə qoşulması üçün texniki şərtlərin verilməsi artıq bölgələrdəki bütün “ASAN xidmət” və “ASAN kommunal” mərkəzlərində gerçəkləşdirilməyə başlanıldı. Elə bu səbəbdəndir ki, fevral ayı ərzində sahibkarların elektrik təchizatı şəbəkəsinə qoşulması üçün müraciətlərin sayında sıçrayış olub. Belə ki, fevral ayı 28 gündən ibarət olmasına baxmayaraq, 330 sahibkar elektrik şəbəkəsinə qoşulmaq üçün müraciət edib. Hansı ki yanvar ayında 284 sahibkar bu məqsədlə “ASAN xidmət” və “ASAN kommunal” mərkəzlərinə müraciət etmişdi. Sahibkarların elektrik şəbəkəsinə qoşulmaq üçün “ASAN xidmət” vasitəsilə “Azərişıq” ASC-yə müraciətlərinin sayının çoxalmasında digər səbəb heç şübhəsiz vahid pəncərə sistemi üzrə prosedurların 7-dən 3-ə salınması və elektrik şəbəkəsinə qoşulma müddətinin 69 gündən 24 günə endirilməsidir.

Fevral ayı ərzində sahibkarlarla yanaşı, əhali abonentlərin də “ASAN xidmət” vasitəsilə “Azərişıq” ASC-yə müraciətlərinin sayında artım olub. Əgər yanvar ayında 3041 vətəndaş evinə, bağına və ya həyətinə işıq çəkdirmək üçün “ASAN xidmət” vasitəsilə “Azərişıq” ASC-yə müraciət etmişdisə, fevral ayının 28 günü ərzində 3252 vətəndaş müraciət edib. Sözsüz ki, məişət abonentlərinin elektrik şəbəkəsinə qoşulmaq üçün həyata keçirilən xidmətin bütün bölgələrdəki “ASAN xidmət” mərkəzlərini əhatə etməsi bu məsələdə də müsbət rolunu oynayıb.

Ümumilikdə isə fevral ayı ərzində “Azərişıq” ASC-nin “ASAN xidmət” mərkəzləri vasitəsilə göstərdiyi 10 xidmət üzrə (əhali və qeyri-əhali abonentlərin elektrik şəbəkəsinə qoşulması, əhali və qeyri-əhali abonentliyin bir addan başqa ada keçirilməsi, borcun araşdırılması, üzləşmə aktının əldə edilməsi, smart kartın yenilənməsi, geniş tarixçə əldə edilməsi, sayğacın yoxladılması, smart karta ödəniş edilməsi) 19 min müraciət olunub.

***“Azərbaycan”***

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# “AzerGold” QSC-nin nailiyyətləri beynəlxalq konfransda böyük marağa səbəb olub

“AzerGold” QSC-nin nümayəndə heyəti Kanadanın Toronto şəhərində təşkil olunan “PDAC 2018” (Prospectors & Developers Association of Canada 2018) adlı beynəlxalq konfransda iştirak edir.



“AzerGold” QSC-nin nümayəndələri geoloji kəşfiyyat, metallurgiya, mədənçilik üzrə texnoloji nailiyyətlər, investisiyaların cəlb edilməsi və korporativ sosial məsuliyyət mövzularının müzakirələri üçün təşkil olunan platformalarda iştirak edərək bu sahələrdə mövcud müxtəlif yanaşma və müasir trendlərlə yaxından tanış olublar. Bundan əlavə, Cəmiyyətin nümayəndə heyəti geniştərkibli görüşlər keçirərək yeni işgüzar əlaqələr yaradıb. Belə ki, “Golder Associates”, “FLSmith”, “Outotec”, “Metso”, “Vale”, “Newmont”, “BHB Billiton”, “Teck” və digər məşhur şirkətlərlə görüşlər təşkil olunub. Şirkətlər Cəmiyyətlə əlaqələrin inkişaf etdirilməsində maraqlı olduqlarını bildirərək əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu qeyd ediblər.

Konfransın sərgi hissəsində yerləşdirilən Azərbaycanın qiymətli metal yataqları və əlvan metal sənayesi haqqında “AzerGold” QSC-nin məlumat stendi sərgi iştirakçılarının böyük marağına səbəb olub. Stendin ziyarətçiləri Cəmiyyətin qısa müddət ərzində əldə etdiyi nailiyyətləri yüksək qiymətləndiriblər. Hər il keçirilən beynəlxalq “PDAC” konfransı faydalı qazıntıların hasilatı ilə məşğul olan mütəxəssislər, təşkilatlar və şirkətlər üçün təşkil olunan dünyanın ən nüfuzlu tədbirlərindən biridir. 4-7 mart tarixlərində keçirilən builki konfransda 130 ölkəni təmsil edən 25 minə yaxın insan iştirak edir.

***“Azərbaycan”***

# Fələstin, Rumıniya, Bosniya və Herseqovinanın hökumət başçılarının müavinləri VI Qlobal Bakı Forumunda iştirak edəcəklər

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə martın 15-17-də Bakıda keçiriləcək VI Qlobal Bakı Forumunda Fələstin Baş nazirinin müavini Ziad Abu Amr, Bosniya və Herseqovinanın hökumət başçısının müavini Mirko Sarovic, Rumıniya Baş nazirinin müavini Ana Birçall iştirak edəcəklər.

Dövlət komitəsindən AZƏRTAC-a bildiriblər ki, Yaxın Şərq regionunda sülh və təhlükəsizlik məsələləri, Balkan regionunda mövcud geosiyasi vəziyyət, müasir dövrdə ictimai və siyasi həyatda gənclərin artan rolu kimi mövzuların müzakirə olunacağı tədbirdə hər üç ölkənin hökumət nümayəndələrinin çıxışı planlaşdırılır.

Fələstin Baş nazirinin müavini Ziad Abu Amr Orta Şərqdə regional təhlükəsizlik, regional sülh, Bosniya və Herseqovinanın hökumət başçısının müavini Mirko Sarovic kapitalizmdə iqtisadi inkişafın ətraf mühitə təsiri, Rumıniya Baş nazirinin müavini Ana Birçall isə meydana çıxan yeni güclərə dair panel müzakirələrdə çıxış edəcəklər.

Forumun işində Albaniya Respublikasının Prezidenti İlir Meta, Makedoniya Prezidenti George İvanov, Moldova Prezidenti İqor Dodon, Mavriki Respublikasının Prezidenti Amina Qurab-Fakim, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Mladen İvaniç, Türkiyənin Baş naziri Binəli Yıldırım, xarici işlər naziri Mövlud Çavuşoğlu da daxil olmaqla 10-dan çox ölkənin prezidenti, baş naziri və xarici işlər nazirləri iştirak edəcəklər. Eyni zamanda, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü olan sabiq ölkə və hökumət başçıları, tanınmış ictimai və siyasi xadimlərin də daxil olduğu 500 nəfərə yaxın qonağın iştirakı nəzərdə tutulur.

# Son 10 ildə Azərbaycan iqtisadiyyatına 230 milyard dollar investisiya qoyulub

Bu barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə “Kapital bazarları vasitəsilə maliyyələşmə, listinq və investisiyalar” mövzusunda keçirilən tədbirdə deyib.

Z.Səmədzadə Azərbaycan kapital bazarlarının perspektivlərindən, kapital bazarlarında maliyyələşmənin yollarından və mövcud təcrübədən danışıb. Komitə sədri iqtisadiyyatın inkişaf perspektivində kollektiv investisiya mexanizmlərinin əhəmiyyəti və onun maliyyə bazarlarının inkişafının əhəmiyyətini vurğulayıb.

Maliyyə Bazarlarına Nəzarət Palatasının baş icraçı direktoru İbrahim Alışov qeyd edib ki, ötən il banklar tərəfindən Azərbaycan iqtisadiyyatına 5 milyard manat kredit qoyulub. Ötən il qeyri-neft ixracında 25 faiz artım qeydə alınıb. Qeyri-neft ixracında əsas yeri kənd təsərrüfatı tutub. 2017-ci ilin yekunları bu il iqtisadiyyatın daha dinamik, sürətli inkişafına əsas verir. İ.Alışov həmçinin martda daşınar əmlakın dövlət yüklülüyü reyestrinin istifadəyə veriləcəyini deyib.

# VII “Caspian Energy Forum Baku-2018”ə qeydiyyat başlayıb

Azərbaycan hökuməti, “Caspian European Club”, “Caspian American Club” və “Caspian Asian Club”un dəstəyi ilə sentyabrın 19-20-də keçiriləcək VII Beynəlxalq “Caspian Energy Forum Baku-2018”ə qeydiyyat başlayıb.




“Caspian European Club”un sədrinin birinci müavini və baş icraçı direktoru Telman Əliyevin sözlərinə görə, “Caspian Energy Forum” Xəzər-Qara dəniz və Baltik regionu ölkələrində ildə bir neçə dəfə keçirilir və biznes-hökumət dialoqunun fəallaşmasından ötrü əlverişli şərait yaratmaq, neft və qeyri-neft sektoru sahələrinə aid şirkətlər arasında sıx əməkdaşlıq qurmaq, transmilli şirkətlərlə kiçik və orta biznes nümayəndələrinin, həmçinin qlobal biznes əməkdaşlığında maraqlı olan investor, ekspert və analitiklərin görüşlərini təşkil etmək üçün ənənəvi meydan rolunu oynayır”: “Caspian Energy Forum Baku-2018”də sıralarında Azərbaycan hökumətinin üzvlərinin, Xəzər-Qara dəniz və Baltik regionu ölkələrinin dövlət və transmilli şirkətlərinin, beynəlxalq maliyyə institutlarının, aparıcı analitik mərkəzlərin, investisiya təşkilatlarının və reytinq agentliklərinin rəhbərlərinin, həmçinin Azərbaycanda akkreditə olunmuş diplomatik və beynəlxalq missiya nümayəndələrinin də yer aldığı 300-dən 500-dək nümayəndənin iştirak edəcəyi gözlənilir. Bundan əlavə, tədbirin proqramında iştirakçıların işi və ünsiyyəti üçün kofe-breyk, işgüzar nahar zamanı əlavə imkanlar nəzərdə tutulub”, - deyə T.Əliyev əlavə edib.

Xatırladaq ki, “Caspian European Club” 2002-ci ilin iyununda Xəzər-Qara dəniz regionunda fəaliyyət göstərən nəhəng neft-qaz şirkətlərinin dəstəyi ilə 2016-cı il dekabrın 24-də “Caspian American Club”, 2018-ci il yanvarın 26-da “Caspian Asian Club” yaradılıb. İki il ərzində onlar “Caspian European Club”un idarə heyətinin üzvləri tərəfindən idarə olunacaq. “Caspian European Club”a daxil olan bütün şirkətlər avtomatik olaraq “Caspian American Club” və “Caspian Asia Club”un, “Caspian American Club” və “Caspian Asia Club”da yer alanlar isə “Caspian European Club”un üzvü hesab edilirlər.

Yarandığı ilk gündən “Caspian European Club” neft sahəsindən əldə olunan gəlirlərin qeyri-neft sektorunun inkişafına yönəldilməsinə yardım edir. Sıralarında 5 mindən çox şirkət və təşkilatı birləşdirən “Caspian European Club”, “Caspian American Club” və “Caspian Asian Club” dünyanın 70 ölkəsində fəaliyyət göstərir, dövlət qurumları ilə özəl sektor arasında dialoqun dəstəklənməsi istiqamətində fəal iş aparır. “Caspian European Club”, “Caspian American Club” və “Caspian Asian Club”un sədri Azərbaycan Prezidentidir.

“Caspian Energy” jurnalı dünyanın 70 ölkəsində yayılır. 19 il ərzində jurnalda dünyanın müxtəlif ölkələrinin prezident və baş nazirlərinin, həmçinin nüfuzlu beynəlxalq təşkilat və nəhəng transmilli şirkət rəhbərlərinin müsahibələri, aparıcı ekspertlərin icmal və analitik materialları dərc olunur. Müxtəlif qiymətləndirmələrə görə, “Caspian Energy” jurnalı Xəzər-Qara dəniz və Baltik regionlarının aparıcı nəşrləri beşliyinə daxil olub, həmin regionlarda fəaliyyətin müəyyən edilməsində əksər sərmayəçilər üçün istiqamətləndirici rol oynayır.

# Bakıda “SHE Congress” beynəlxalq qadınlar konqresi keçirilib

Martın 6-da Bakıda “SHE Congress” beynəlxalq qadınlar konqresi keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Azərbaycan tarixinin bütün dövrlərində qadın mövzusunun aktual olduğunu söyləyib. O deyib ki, Azərbaycanda qadınların hüquqlarının qorunması dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu, həmişə belə olub. 1918-ci ildə Şərqdə ilk dəfə Azərbaycanda qadına seçmək və seçilmək hüququ verilib.

Komitə sədri qeyd edib ki, ümummilli lider Heydər Əliyev qadınların idarəetmədə iştirakına və irəli çəkilməsinə hər zaman önəm verib. Ulu öndər qadın hüquqlarının müdafiəsini siyasi fəaliyyətinin tərkib hissəsi hesab edib, milli qadın hərəkatının formalaşması, institutlaşması üçün böyük işlər görüb. Bu gün bu siyasəti uğurla davam etdirən Prezident Ilham Əliyev Azərbaycanda qadın sahibkarlığının inkişafı, qaçqın və məcburi köçkün qadınların hüquqlarının qorunması istiqamətində bir sıra önəmli sənədlər imzalayıb.

Diqqətə çatdırılıb ki, 2006-cı ildə Prezident İlham Əliyevin fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Eyni zamanda, hüquqi bazanın yenidən təkmilləşdirilməsi və bərabər hüquqların təmin edilməsi üçün “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında”, “Məişət zorakılığının qarşısının alınması haqqında” qanunlar qəbul olunub. Ölkəmiz gender bərabərliyi sahəsində beynəlxalq konvensiyalara qoşulub. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında da gender məsələsi xüsusi nəzərə alınıb. Qadınlara qarşı zorakılığın qarşısının alınması, məşğulluq sahəsində bərabər imkanların yaradılması, dövlət siyasətində qadınların önəmli yer tutması diqqət mərkəzindədir.

Vurğulanıb ki, birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva özünün həm ictimai-siyasi fəaliyyəti, həm də elmi yaradıcılığı ilə müasir dövrdə Azərbaycan qadınlarına nümunədir. O, müasir Azərbaycan qadın hərəkatının lideri kimi ölkəmizin tərəqqisi naminə mühüm işlər görür.

Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan qadınının üzləşdiyi çətinliklər barədə də məlumat verən Hicran Hüseynova bildirib ki, gender bərabərliyi hətta ən çətin zamanda da dövlətin diqqətindədir.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov Azərbaycanda qadın sahibkarlığının inkişafı üçün görülən işlərdən danışıb. Qeyd edilib ki, bugünədək Azərbaycanda 4 mindən çox qadın sahibkara 93,5 milyon manat güzəştli kredit ayrılıb. Qadın sahibkarlığının inkişafı məqsədilə Azərbaycan Sahibkar Qadınlar Assosiasiyası yaradılıb. Qeyd edilib ki, qadın sahibkarlığının inkişafı üçün xarici təcrübənin öyrənilməsi, müəyyən stimullaşdırıcı tədbirlərin reallaşdırılması əsas məsələlərdən biridir. İqtisadiyyat Nazirliyi tərəfindən hazırda bununla əlaqədar iş aparılır. Bu yaxınlarda Prezident İlham Əliyevin müvafiq fərmanı ilə İqtisadiyyat Nazirliyinin nəzdində “Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi” publik hüquqi şəxs yaradıldı. Bu agentliyin məqsədi də ölkədə prioritet hesab olunan sahibkarlığın inkişafıdır.

Nazir müavini bir sıra tədbirlərin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə həyata keçirildiyini vurğulayıb. O, bu işlərdə Heydər Əliyev Fondunun rolunu, fondun təşəbbüsü ilə həyata keçirilən layihələrin əhəmiyyətini xüsusi qeyd edib.

“Azərbaycanın 100 işgüzar xanımı” təşkilatının sədri Tatyana Mikayılova bildirib ki, qadınların cəmiyyətdə kişilərlə bərabər hüquqlara malik olmaları üçün müxtəlif sahələrdə islahatlar aparılmalıdır. Qızların, qadınların hüquqlarının pozulmasını araşdırmaq üçün, ilk növbədə, cinsi seleksiya məsələlərinə nəzər yetirmək lazımdır.

Tədbirdə digər çıxış edənlər “SHE Congress” layihəsi barədə məlumat veriblər. Bildirilib ki, layihənin əsas məqsədi biznesdə öz sözünü demiş, ailə həyatını və analığı karyerası ilə uğurla uyğunlaşdıra bilən qadınların öz təcrübələrini çətinlik çəkən və biznesdə ilk addımlarını atanlarla bölüşməkdir.

Xatırladaq ki, “SHE Congress” beynəlxalq qadınlar konqresi Bakıda ikinci dəfədir keçirilir. Konqresin əsası 2014-cü ildə Kiyevdə qoyulub.

# Dünya Limanlar Konfransı Bakıda keçiriləcək

Mayın 8-dən 11-dək Bakıda Dünya Limanlar Konfransı keçiriləcək. Artıq konfransa qeydiyyat başlayıb. Bakı Beynəlxalq Dəniz Ticarət Limanından bildiriblər ki, konfrans “Gələcəyin limanları: qovşaqlar yaratmaqla qarşılıqlı əməkdaşlığın gücləndirilməsi” mövzusuna həsr olunacaq.

Məlumat üçün bildirək ki, Beynəlxalq Limanlar Assosiasiyası (IAPH) 90 ölkədə 180-ə yaxın liman və limanlarla əlaqəsi olan 140 müəssisəni təmsil edir. Təşkilatın üzvləri dünya dəniz ticarətinin 60 faizindən çoxunu həyata keçirir və beynəlxalq konteyner marşrutlarının 80 faizinə nəzarət edir. IAPH hər il iri liman şəhərlərində konfranslar keçirir. Los-Anceles (2013), Sidney (2014), Hamburq (2015), Panama (2016) və Bali (2017) bundan əvvəlki konfranslara evsahibliyi ediblər.

“IAPH Baku 2018”in iştirakçıları “Kəmər - Yol” təşəbbüsü çərçivəsində nəqliyyat dəhlizlərinin yaradılması, azad ticarət zonalarının milli iqtisadiyyata və qonşu ölkələrin iqtisadiyyatına töhfəsi və XXI əsrdə “SmartPorts” və “Yaşıl limanlar” konsepsiyası kimi mühüm və maraqlı mövzuların müzakirəsi üçün unikal imkan əldə edəcəklər.

Konfransda “DP World”un sədri və baş icraçı direktoru Sultan Əhməd bin Suleyem, “Forbes” və “BBC World”un əməkdaşı Ueyd Şepard, “FMP Associates Ltd”nin direktoru və “Dubai Logistics City”nin sabiq baş icraçı direktoru Maykl Profitt, Triyest limanının prezidenti Zeno d'Aqostino, Nigeriya Limanlar Administrasiyasının icraçı direktoru Xadiza Bala Usman, “Port of Le Havre”nin baş direktoru Erve Martell və Şanxay Universitetinin professoru Teo Teotetomun çıxışları nəzərdə tutulur.

Maraqlı forum və diskussiyalarla yanaşı, konfrans iştirakçıları üçün mədəniyyət proqramı çərçivəsində əyləncəli tədbirlər və ekskursiyalar təşkil olunacaq.

# Narkoloji Mərkəzdə yanğının qəsdən törədildiyi təsdiqlənib, şübhəli bilinən şəxs həbs olunub

Martın 6-da Baş Prokurorluq və Daxili İşlər Nazirliyi Bakı şəhərinin Xətai rayonu ərazisində yerləşən Respublika Narkoloji Mərkəzində çoxsaylı insan tələfatı ilə nəticələnən yanğınla bağlı aparılan təhqiqatın nəticələri barədə birgə məlumat yayıblar.

AZƏRTAC xəbər verir ki, birgə məlumatda hadisənin səbəblərinin araşdırılması və təqsirkar şəxslərin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən təxirəsalınmaz prosessual hərəkətlər və əməliyyat-axtarış tədbirləri həyata keçirilməklə zərərçəkmiş şəxslərin və mərkəzin tibb personalının şahid qismində dindirildiyi, zəruri ekspertizaların təyin edildiyi bildirilib. Görülmüş tədbirlərlə Narkoloji Mərkəzdə “alkoqol qəbulu nəticəsində psixi və davranış pozuntuları” diaqnozu ilə müalicə alan Bakı şəhər sakini Məhəmməd Məmmədov martın 3-də həmin cinayətdə şübhəli şəxs qismində tutulub. İlkin dindirmə zamanı cinayəti törətdiyini etiraf edən Məhəmməd Məmmədov ailə üzvlərinin ona qərəzli münasibətinə etiraz əlaməti olaraq və Narkoloji Mərkəzdə müalicə almaq istəmədiyinə görə intihar etmək qərarına gəldiyini bildirib. Bu məqsədlə martın 2-də saat 06 radələrində qaldığı palatada yorğana bürünərək onu alışqanla yandırdığını, alov gücləndikdə özünü öldürmək niyyətindən daşınıb yanan yorğanı çarpayısının üstünə atdığını, alovun digər palatalara keçməsindən qorxduğu üçün şöbənin qapısı açılan kimi mərkəzi tərk etdiyini göstərib.

Qeyd edilənlər şahid ifadələri, hadisənin başvermə mexanizmi və mərkəzdə olan müşahidə kameralarının görüntüləri ilə təsdiqlənib.

Məhəmməd Məmmədov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 120.2.4-cü (ümumi təhlükəli üsulla qəsdən adam öldürmə), 120.2.7-ci (iki və ya daha çox şəxsi öldürmə), 120.2.9-cu (köməksiz vəziyyətdə olan adamı öldürmə) və 186.2.2-ci (yandırmaqla özgə əmlakını qəsdən məhv etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib, eləcə də kompleks məhkəmə psixiatrik, psixoloji və narkoloji ekspertizalar təyin olunub.

Cinayət işi üzrə istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir. Nəticələr barədə əlavə məlumat veriləcək.

Xatırladaq ki, martın 2-də Bakı şəhərinin Xətai rayonu ərazisində yerləşən Respublika Narkoloji Mərkəzində çoxsaylı insan tələfatı ilə nəticələnən yanğın baş verib. Fakt üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, həmçinin təcrübəli əməkdaşlardan ibarət istintaq-əməliyyat qrupu yaradılıb.

## Tarixləşən heykəllər

Onlar ömürlərini şama çevirərək millət yolunda yandırdılar ki, qaranlıqlar aydınlansın. Çünki maarif işığı yandırmadan nurlu gələcəyə nail olmaq mümkün deyil. Bunun üçün millətin maarifpərvər övladları hər cəfaya dözdülər. Məqsədləri soydaşlarının savadlanması, cahillikdən qurtularaq haqlarını, hüquqlarını anlamaları, tərəqqi etmələri idi. Bu müqəddəs amal yolunda həyata keçirdikləri işlərin bəhrəsini özləri görə bilməsələr də, çəkdikləri əziyyətlər hədər getmədi. O şəxsiyyətlərin xoş əməlləri, gözəl niyyətləri, zəhmətləri unudulmadı. Yəqin, elə buna görə Bakıda ilk heykəllər millətin böyük maarifçi övladlarına - Mirzə Fətəli Axundzadəyə və Mirzə Ələkbər Sabirə ucaldıldı.







# Bakının ilk abidələri

### "Köhnə Sabir"

Bakıda görkəmli satirik şair Mirzə Ələkbər Sabirin heykəli 1922-ci ildə qoyuldu. Layihəsi heykəltəraş Y.Sirişev tərəfindən verilən abidənin hazırlanması heykəltəraş Y.İ.Keylixisə həvalə olundu. Şairin heykəli İçərişəhər divarlarının yaxınlığında, "İsmailiyyə" binası ilə yanaşı bağda məskən tapdı.

Ancaq əsər sənətkarlıq baxımından o qədər də uğurlu hesab edilmədi. Səbəb kimi bəzilərinin söylədikləri heykəlin yad millətdən olan sənətkarlar tərəfindən hazırlanması fikri idi. Amma bu da mübahisəlidir. "Sənətkarın milliyyəti olmur" deyənlərə haqq verməmək mümkünsüzdür. Digər tərəfdən, bu da həqiqətdir ki, ilk eskizlərindən tutmuş heykəlin hazırlanmasına qədər bütün işləri həyata keçirən rəssamlar Azərbaycan incəsənəti üçün əhəmiyyətli işlər görmüşdülər. Amma göz önündə olan, danılmaz bir fakt da var idi: bu da Sabir dünyasında, şeiriyyətində qərar tutmuş milliliyin, şairin daxili dünyasının, ictimai-siyasi ədalətsizliyə etirazının əsərdə əksini tapmaması idi. Yakov İosifoviç Keylixis ona həvalə olunan işin öhdəsindən gələ bilməmişdi.

### Yeniləşən "Sabir"

Buna baxmayaraq, şəhərin baxımlı yerində salınmış bağla, qədim qalın qala divarları ilə harmoniya yarada bilməyən heykəl orada 36 il qaldı. 1950-ci ilin ilk günlərindən Bakıda sənaye və şəhərsalma işləri daha da sürətləndi. "M.Ə.Sabir" heykəlinin yerləşdiyi mərkəzi bağda da quruculuq işləri həyata keçirilməyə başlanıldı. Əsas məqsəd bağın sərt qala divarları, ətrafdakı qədim tikililərlə harmoniyasını yaratmaq idi. "M.Ə.Sabir" heykəli bu harmoniyaya uyğun gəlmədiyindən onu yenisi ilə əvəz etmək qərarına gəldilər. Bu dəfə iş heykəltəraş Cəlal Qaryağdının öhdəsinə düşdü.

1958-ci ildə M.Ə.Sabirin heykəli yeniləndi. Bu dəfə heykəl ətrafdakı tikililərlə vəhdət yarada bildi. Əsərin müəllifləri istedadlı heykəltəraş C.Qaryağdı, arxitektorlar Q.Əlizadə, A.İsmayılov oldu. Heykəl tuncdan, qara qranitdən və mərmərdən işləndi.

1958-ci ildən M.Ə.Sabirin heykəli Bakının baxımlı yerlərindən birində salınmış bağa xüsusi ab-hava gətirir, fərqli ovqat yaradır.

Əlində kitab oturmuş halda təsvir edilən şairin baxışlarından müdriklik oxunur. M.Ə.Sabirin "Bənzərəm bir qocaman dağə ki, dəryadə durar" misrasından təsirlənən heykəltəraş ona məhz bu cür forma vermişdi. Bu barədə də fərqli fikirlər söylənildi. Bəziləri şairin oturmuş vəziyyətdə təsvir edilməsinin onun ictimai mübarizələrdə keçən həyatını lazımınca nəzərə çarpdırmadığını qeyd etdilər. Bunun əksini iddia edənlər isə üsyankar şairin bu görkəmində də mübarizə elementləri görə bildilər. Amma bir məsələdə fikirlər tam uyğun oldu. Heykəltəraş məqsədinə çatmış, şairin heykəlində milli elementləri ustalıqla verə bilmişdi.

### Zamanla ayaqlaşan "Mirzə Fətəli Axundzadə"

M.Ə.Sabirin abidəsindən səkkiz il sonra Azərbaycan dramaturgiyasının banisi, yazıçı-dramaturq, filosof, ictimai xadim, maarifçi M.F.Axundzadənin xatirəsi əbədiləşdirildi.

1930-cu illər keçmiş sovet hökuməti tərəfindən mədəni quruculuq işlərinin sürətlə reallaşdırıldığı illər idi. Aparılan siyasətə uyğun olaraq həmin dövrdə SSRİ-nin tabeliyində olan respublikaların iri şəhərlərində bu məsələlər xüsusi təmtəraqla və təbliğatla həyata keçirilirdi. Şəhərsalma və memarlıq da həmin siyasətin tərkib hissəsinə çevrilirdi. Mərkəzdən Bakı Şəhər İcraiyyə Komitəsinə də bu istiqamətdə gərgin çalışmaq, diqqətəlayiq işlər görmək tapşırığı verildi.

1928-ci ildə Azərbaycanda M.F.Axundzadənin vəfatının 50 illiyi geniş qeyd edilmişdi. Həmin il yazıçının heykəlinin bünövrəsi qoyulmuşdu. Abidənin rəsmi açılış mərasimi isə 1930-cu il mayın 2-də keçirildi. Mirzə Fətəli Axundzadənin heykəli Odessada 1926-cı ildən Bakıda yaşayıb çalışan heykəltəraş Pinxos Sabsay tərəfindən hazırlandı və şəhərin mərkəzində kiçik bağda qoyuldu. Sahəsi 1300 kvadratmetr olan bağ 2008-ci ildə yenidən quruldu. Bərpadan sonra burada 3 mindən çox gül və bəzək kolu əkildi. Bağın ətrafında maraqlı tarixi binalar diqqəti cəlb edir. M.F.Axundzadənin heykəli də bu bağa xüsusi ab-hava gətirir.

P.Sabsay bu əsəri hazırlayarkən onu küçə səs-küyündən uzaq yer üçün nəzərdə tutmuşdu. Abidə yerləşdirilən zaman bağın memarlıq işləri yekunlaşmamışdı. İşlər başa çatdıqdan sonra ansamblın kompozisiya mərkəzi heykəl oldu. Sabsay heykəlin yerləşdiyi ərazi ilə harmoniyasına nail oldu. Abidə elə ustalıqla ucaldıldı ki, nəinki bağla, bütövlükdə ətraf tikililərlə vəhdət yaradır.

Bu böyük azərbaycanlının heykəli də özü kimi bəlalar gördü. 1941-1945-ci illər müharibəsi və ondan sonrakı dövrlərdə bəzi dardüşüncəlilər heykəlin yerləşmə qütbü ilə razılaşmadıqlarını bəhanə gətirdilər. Onun istiqamətini gecə ilə dəyişməyə cəhd etdilər.

"M.F.Axundzadə" heykəlinin bu ərazidə ucaldılmasından uzun illər keçir. O vaxtdan bəri çox dəyişikliklər baş verdi. Zövqlər dəyişdi. Axundzadənin heykəli də zamanın böyük sınaqlarından keçib zamanla ayaqlaşa bildi.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***


*Təkrar*

## Azərbaycan Respublikası Təhsil Nazirliyi
### *Lənkəran Dövlət Universiteti*
### ***açıq tenderə dəvət edir***

**Tender 2 (iki) lot üzrə keçirilir:**

**LOT 1.** LDU-da cari təmir işləri.
**LOT 2.** LDU-da digər tikililərin inşası işləri.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Lənkəran şəhər H.Aslanov xiyabanı - 50 nömrəli ünvanda ala bilərlər.

İştirak haqqı:
1-ci LOT üzrə 550 (beş yüz əlli) manat
2-ci LOT üzrə 650 (altı yüz əlli) manat

**Əlaqələndirici şəxs: Quliyev Vaqif Şahvərən oğlu**
**Telefon: (025) 255 00 25**
**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**
**Lənkəran Dövlət Universiteti**

| | |
|---|---|
| **Hesab №:** | **AZ97AIIB33080019443870045138** |
| **VÖEN:** | **2600135481** |
| **Kapital Bank ASC Lənkəran filialı** | |
| **Kod:** | **200383** |
| **VÖEN:** | **9900003611** |
| **M/H:** | **AZ37NABZ01350100000000001944** |
| **S.W.I.F.T. BIK:** | **AIIBAZ2X** |

**Ünvan: AZ 4200, Lənkəran şəhəri, H.Aslanov xiyabanı - 50**
**Faks: (025) 255 27 86**
**www.lsu.edu.az: office@lsu.edu.az**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 05 aprel 2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 13 aprel 2018-ci il saat 17:00-a qədər Lənkəran şəhəri, Həzi Aslanov - 50 ünvanına, Lənkəran Dövlət Universitetinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 16 aprel 2018-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Bildiriş

*Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi inzibati binanın fasadının yuyulması xidmətlərinin kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.*

Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 12 mart 2018-ci il saat 17:00 tarixinədək qəbul olunur.

**Ünvan: S.Əsgərova, 85**

***Tender komissiyası***

## Bildiriş

*Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu əlilliyi olan şəxslər və sağlamlıq imkanları məhdud uşaqlar üçün Novruz bayramı münasibətilə tədbirlərin təşkil edilməsi xidmətlərinin kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.*

Maraqlanan təşkilatlar (012) 434-20-05 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 12 mart 2018-ci il saat 17:00 tarixinədək qəbul olunur.

**Ünvan: H.B.Zərdabi pr. 80**

***Tender komissiyası***


# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

### Şri-Lankada fövqəladə vəziyyət elan olundu



Dindar buddaçı və müsəlman icmaları arasında bir neçə gün davam edən iğtişaşlardan sonra Şri-Lankada fövqəladə vəziyyət elan olunmuşdur. Bu barədə "əl-Cəzirə" telekanalı xəbər verir.

Məlumata görə, hökumət icmalar arasında toqquşmalar yaradanlara qarşı sərt tədbirlər həyata keçirmək üçün məhdudiyyətlər tətbiq etmişdir.

Xatırladaq ki, srağagün iğtişaşlar üzündən Kandi şəhərində komendant saatı elan edilmişdir.

Bildirilir ki, iki icma arasında münaqişə son bir ildə buddaçıların müsəlmanları islamı zorla qəbul etdirmək və buddaçıların arxeoloji abidələrini dağıtmaq ittihamlarından sonra qızışmışdır.

### Myanmada müsəlmanlara qarşı etnik təmizləmə davam edir



Myanma Rakxayn ştatında müsəlmanlara qarşı terror kampaniyası həyata keçirməklə və onları aclığa vadar etməklə rohincaların etnik təmizlənməsi siyasətini davam etdirir. Bu barədə qonşu Banqladeşin ərazisindəki qaçqın düşərgələrində məskunlaşmış adıçəkilən etnik qrupun üzvlərinə müraciətində BMT Baş katibinin insan hüquqları üzrə köməkçisi Endrü Gilmor bildirmişdir.

TASS agentliyinin xəbərinə görə, münaqişə başlayandan bəri Myanmadan 700 min nəfərə yaxın Rohinca müsəlmanı Banqladeşdə sığınacaq tapmışdır.

Gilmorun dediyinə görə, son vaxtlar zorakılığın xarakteri dəyişmişdir: qızğın qantökmə və kütləvi zorlama qorxutma və ərzaq məhsullarından məhrumetmə siyasəti ilə əvəzlənmişdir.

Xatırladaq ki, Rakxayn ştatında Myanma silahlı qüvvələri ilə Rohinca müsəlmanları arasında münaqişə ötən ilin avqustunda kəskinləşmişdi. Nəticədə 400 nəfərə yaxın adam həlak olmuş, yüz minlərlə müsəlman qonşu Banqladeşə qaçmışdı. Qaçqın düşərgələrində içməli su və ərzaq çatışmazlığı, habelə əlverişsiz hava şəraiti ilə əlaqədar humanitar təşkilatlar onların həyatı üçün narahatlıq keçirir.

### BQXK Şərqi Qutə əhalisinə humanitar yardımı dayandıracaq



Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) bildirmişdir ki, Suriyanın Şərqi Qutə bölgəsinin sakinlərinə humanitar yardımı dayandırmaq məcburiyyətində qalmışdır. Bu barədə "Assoşieyted Press" agentliyi xəbər verir.

Təşkilat belə bir qərarı bölgədə təhlükəsizlik sahəsində vəziyyət pisləşdiyinə görə qəbul etmişdir. BQXK-nın Suriyadakı nümayəndəsi İnqa Sedkinin dediyinə görə, bu günlərdə beynəlxalq təşkilatın yük maşınları karvanı humanitar yardımın böyük bir hissəsini Şərqi Qutəyə çatdırmışdır. O qeyd etmişdir ki, atışma üzündən humanitar missiyanı dayandırmalı olmuşlar və BQXK-nın əməkdaşları humanitar yardım maşınlarını tamamilə boşalda bilməmişlər.

Hazırda 400 min nəfərə yaxın adamın yaşadığı Şərqi Qutədə Suriya hökumət qoşunları ilə silahlı müxalifət və terrorçu qruplaşmalar arasında döyüşlər davam edir.

### "Lassa" qızdırması Nigeriyada 90 nəfərin həyatına son qoydu



Rəsmi məlumata görə, Nigeriyada "Lassa" qızdırması epidemiyası nəticəsində artıq 90 nəfər dünyasını dəyişmişdir. 317 nəfər ölümcül xəstəliyə yoluxmuşdur. Bu barədə "BBC News" xəbər verir.

"Lassa" qızdırması virus mənşəli təhlükəli infeksiyadır. Virus ərzaqla, yaxud heyvanların çirkləndirdiyi əşyalar vasitəsilə keçir.

Statistikaya əsasən, yoluxma hallarının təxminən bir faizi ölümlə nəticələnir. Lakin Nigeriyadakı hazırkı epidemiya bu statistikanı təkzib edir. Belə ki, ölkədə yoluxma hallarının 20 faizi ölümlə nəticələnmişdir.

"Lassa" qızdırmasından peyvənd yoxdur. Ancaq güman edilir ki, yaxın beş il ərzində peyvənd yaradılacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, Milli Məclisin deputatı S.Möhbalıyev və aparat işçiləri komitənin sədr müavini Mirzə Cəfərzadəyə əzizi

**BƏNDALI ZEYNALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Ali Məhkəməsinin hakimləri Əli Rüstəmov, Əsəd Mirzəliyev və Aslan Kalbalıyev Bakı Şəhəri Nəsimi Rayon Məhkəməsinin sədri İlham Cəfərova atası

**MƏMMƏD CƏFƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Mətanət A" şirkətinin rəhbəri Elxan Bəşirov və şirkətin kollektivi daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Şəhəri Nərimanov Rayon Məhkəməsinin kollektivi Nəsimi Rayon Məhkəməsinin sədri İlham Cəfərova atası

**MƏMMƏD CƏFƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi və məhkəmənin kollektivi Bakı Şəhəri Nəsimi Rayon Məhkəməsinin sədri İlham Cəfərova atası

**MƏMMƏD CƏFƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qobustandan Adil Məmmədov daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan" nəşriyyatının kollektivi daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan" nəşriyyatının kollektivi "Femida" qəzetinin baş redaktoru

**EYYUB KƏRİMOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetindən Kamil Qafarov ailəsi ilə birlikdə daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Hərbi Məhkəməsinin sədri Həbib Həsənov və məhkəmənin kollektivi Bakı Şəhəri Nəsimi Rayon Məhkəməsinin sədri İlham Cəfərova atası

**MƏMMƏD CƏFƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Hərbi Məhkəməsinin sədri Həbib Həsənov və məhkəmənin kollektivi daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Kooperasiya Universitetinin Mühasibat uçotu və audit kafedrasının əməkdaşları kafedranın əməkdaşı və universitetin Həmkarlar İttifaqı Komitəsinin sədri

**KƏRƏM TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan İnzibati-İqtisadi Məhkəməsinin sədri Mehman Nuriyev və məhkəmənin kollektivi Nəsimi Rayon Məhkəməsinin sədri İlham Cəfərova atası

**MƏMMƏD CƏFƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Xalqla əlaqə şöbəsi - 539-84-41,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoinformasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan " qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan " nəşriyyatında çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 8916**
**Sifariş 654**